

MÖHTƏŞƏM 21 İL 2003 2024

# İnam, ümid, nəticə



**15 oktyabr 2003-cü il Azərbaycan xalqının tarixində yeni bir mərhələnin başlanğıcı - cənab İlham Əliyevin prezident seçildiyi gündür. Cənab İlham Əliyevin prezident seçildiyi ilk gündən ölkədə yeni bir ab-hava hiss olundu. Ulu Öndərimiz Heydər Əliyevin siyasi kursuna sonsuz sədaqətini ifadə edən, hər bir vətəndaşın prezidenti olacağına əminlik yaradan və bunu əməli fəaliyyəti ilə sübut edən ölkə rəhbəri illərin sınağından məharətlə çıxdı.**

Çox mühüm dövlət proqramlarına, layihələrə, beynəlxalq əhəmiyyətli müqavilələrə imza atmaqla, dünya ölkələri ilə əlaqələri möhkəmləndirməklə, saflaşdırmaqla, vətəndaşların həyatına, məişətinə, mədəniyyətinə yeni məna verməklə, tariximizə, dilimizə, dinimizə, milli-mənəvi dəyərlərimizə hörmət və ehtiram bəsləməklə Azərbaycanı xoşbəxt günlərə qovuşdurdu. Xalqımızı, ordumuzu birləşdirərək düşmən üzərində tarixi qələbəni təmin etdi, erməni separatçılarının ayaqlarını Qarabağ torpaqlarından kəsdi.

Bu 21 ilin hər saatı, hər ayı və ili mənalıdır. Həm ağrı-acılı, həm də sevinclidir. Cənab İlham Əliyev bu illər ərzində tək faşist Ermənistanla mübarizə aparmayıb, onun havadarları olan böyük dövlətlərlə ABŞ, Fransa, Avropa İttifaqı, AŞPA kimi sözü ilə əməli bir olmayan beynəlxalq təşkilatlarla, ikiüzlü siyasətçilərlə döyüşüb. Onlara qalib gəlmək üçün yollar arayıb, planlar cızıb, xalqı ilə məsləhətləşib, ordusuna, gücünə arxalanıb. Ulu Öndərimiz Heydər Əliyevin "Ağıl olan yerdə zora ehtiyac yoxdur" kəlamını örnək tutan Prezidentimiz ilk növbədə ağlının, zəkasının, düşüncəsinin gücünə pənah gətirib, reallıqları düzgün qiymətləndirib, böyük rəhbərimizin - atasının siyasi dəst-xətini uğurla davam etdirib.

Cənab İlham Əliyevin fəaliyyətinin bütün dövrlərində ölkədə ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin təmin olunmasına böyük önəm verməsi təsadüfi deyildi. Sabitlik, həmrəylik, bərabərlik, təəssübkeşlik olmayan yerdə demokratiyadan, insan haqlarından, inkişafdan danışmaq, insanların rəğbətini, etimadını qazanmaq mümkün deyildir qənaətində olan Prezidentimiz öz qənaətini əməli işdə doğrultduğu üçün bugünkü möhtəşəm uğurlara imza ata bildi.

Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür və dünya ölkələrində baş verən ciddi qarşıdurmalar, müharibələr, gərginliklər zəminində bu, müsbət bir nümunədir. Cənab İlham Əliyevin dediyi kimi: "Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq uzun illərdir təmin edilir, sabitlik bütün dünya üçün nümunə ola bilər. Hər kəs bilir ki, əgər sabitlik olmasa, heç bir ölkə inkişaf edə bilməz".

Sabitliyin bərqərar edilməsi iqtisadi inkişafda, ictimai-mədəni həyatımızda, beynəlxalq münasibətlərdə parlaq faydalarını göstərir, ölkə vətəndaşlarını bir məqsəd uğrunda mübarizəyə səfərbər edir. Yaradılan ictimai-siyasi sabitlik, iqtisadi inkişaf ölkədə bir çox əsaslı məsələnin həll edilməsinə, problemlərin aradan qaldırılmasına imkan yaradıb. Bu gün Azərbaycan dünyanın iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkələrindən biridir.

İlham Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi 318,9 milyard ABŞ dollarını ötüb keçib, xarici ticarət dövriyyəsi 5,2 milyard ABŞ dollarından 51,2 milyard dollara yüksəlib, qeyri-neft-qaz sektorunda ÜDM 5,0 milyard ABŞ dollarından 45,7 milyard dollara çatıb. Dövlət büdcəsinin gəlirləri 1,2 milyard manatdan 36 milyard 611 milyon manata qədər yüksəlib. Valyuta ehtiyatlarımız 1,6 milyard ABŞ dolları olduğu halda indi 68,5 milyard ABŞ dolları miqdarındadır. Nəqliyyat sektoru 4,1 dəfə, elektrik enerjisinin istehsalı 38,2 faiz, ixracı 3,5 dəfə artıb. 80-ə yaxın elektrik stansiyası istismara verilib.

Kənd təsərrüfatı sektoru 2,2 dəfə inkişaf edib, bu sahəyə investisiya qoyuluşu 11 dəfə artıb. Aqrar sahə üzrə dövlət dəstəyi, o cümlədən maliyyələşmə mexanizmi təkmilləşdirilib, müasir tələblərə uyğun olaraq aqrar sığorta sistemi yaradılıb. İdarəetmə sistemi formalaşdırılıb, elektron kənd təsərrüfatı informasiya sistemi tətbiq olunub, geniş əhali məlumat bazası yaradılıb. Kənd təsərrüfatı məhsulları ixracının həcmi 10 dəfədən çox artıb. Cənab İlham Əliyevin 21 illik prezidentliyi dövründə ölkənin nəinki iqtisadiyyatında, kənd təsərrüfatında, neft-qaz sektorunda, nəqliyyatda, eləcə də sosial sahələrdə ciddi dönüş yaradılıb, vətəndaşların rifah halı qat-qat yaxşılaşıb. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının, mühüm sosial layihələrin həyata keçirilməsi rayon və kəndlərimizin mədəni, iqtisadi görkəmini əsaslı dərəcədə dəyişdirib, insanların həyatına yeni məna verib. Bu illər ərzində 4000-ə yaxın məktəb, 700-dən çox səhiyyə obyekti tikilib təmir edilərək istifadəyə verilib. Təhsilə, səhiyyəyə ayrılan xərclər on dəfədən çox artırılıb. 21 min kvadrat kilometrdən artıq asfalt yollar salınıb, yüzlərlə körpülər tikilib. Son 21 ildə sosial müdafiə və sosial təminat xərcləri 20 dəfədən çox, minimum əməkhaqqı 39 dəfəyə yaxın, orta əməkhaqları 12 dəfə, pensiyalar 14 dəfə artıb. 2018-ci ildən sonra dörd sosial islahatlar paketi həyata keçirilib ki, bu paketlərin məbləği 7 milyard manatdır və o, dörd milyon insanı əhatə edir.

Şəhid ailələrinə və müharibə ilə əlaqəli əlilliyi olan şəxslərə 13 mindən çox mənzil, 7600-dən çox avtomobil verilib. Bu nümunələrin sayını xeyli artırmaq olar. Ölkə rəhbərinin tapşırığı və təşkilatçılığı ilə həyata keçirilən layihələr, proqramlar hesabagəlməzdir və onların hamısını bir məqalədə cəmləşdirmək mümkün deyil. Çünki cənab Prezident 2003-2024-cü illərdə regionlara ümumilikdə 600-dən çox səfər edib, 2550-dən çox tədbir keçirib. Bu tədbirlərin çoxu işğaldan azad olunmuş ərazilərdə baş tutub. Bu, təbiidir, çünki cənab İlham Əliyevin diqqəti və qayğısı sayəsində son illər işğaldan azad olunmuş ərazilərdə misli görünməmiş tikinti, bərpa, təmir və quruculuq işləri həyata keçirilir. Dövlət başçısı hər ay bir neçə dəfə respublikanın bölgələrinə səfərlər edir, təməlqoyma, açılış tədbirlərində iştirak edir, işlərin gedişi ilə tanış olur və dəyərli tapşırıqlarını verir. Füzuliyə, Şuşaya, Laçına, Zəngilana, Cəbrayıla, Xocalıya əhalinin köçürülməsi, Qarabağda və Şərqi Zəngəzurda yeni məktəblərin, xəstəxanaların, ictimai, fərdi binaların ucaldılması, müasir yolların çəkilməsi, körpülərin salınması, beynəlxalq hava limanlarının istifadəyə verilməsi, yeni iş yerlərinin açılması, infrastruktur layihələrinin həyata keçirilməsi regionun parlaq gələcəyindən xəbər verir. Ərazidə 45 tunelin, 450 körpünün inşası nəzərdə tutulur, üç il ərzində 270 meqavat gücündə su-elektrik stansiyaları istifadəyə verilib. 3 min kilometr avtomobil yolu inşa edilib. Səkkiz mindən çox keçmiş məcburi köçkün artıq Qarabağa və Şərqi Zəngəzura qayıdıb.

Azərbaycan Prezidenti yeddinci çağırış Milli Məclisin ilk iclasındakı çıxışında bildirdi ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası təbii olaraq bizim hər birimizin önəmli vəzifəsidir... Müharibədən sonra bu ilin sonuna qədər xərclənməyə nəzərdə tutulan vəsait 19 milyard manatdır. Vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinə xərclənib.



Cənab İlham Əliyev Azərbaycanı tanıtmaq, şöhrətləndirmək üçün bütün siyasi gedişlərə əl atır və istəklərini reallığa çevirə bilir. Azərbaycan artıq beynəlxalq səviyyədə öz sözünü deməyi bacaran və yeri bilinən bir respublikadır. 19 ölkə ilə strateji tərəfdaşlıq, 3 ölkə ilə müstəqillik sazişi imzalayan, 119 ölkənin yekdil qərarı ilə Qoşulmama Hərəkatına sədrlik edən, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (indi TDT) yaradılmasının təşəbbüskarı olan, BMT sistemində ən böyük tədbirin BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP-29) 2024-cü ildə və Dünya Urban Forumunun 2026-cı ildə Bakıda keçirilməsinə zəmanət alan Azərbaycanın nüfuzu daha da yüksəlir. Mərkəzi Asiya ölkələri ilə yeni müstəvidə əlaqələr quran, islam həmrəyliyinə böyük önəm verən, mədəniyyətlərarası və dinlərarası dialoqu ildən-ilə genişləndirən, bir çox zirvə görüşünə, beynəlxalq idman, musiqi tədbirlərinə evsahibliyi edən dövlətimizin dünya xalqlarına, bəşəriyyətə verdiyi töhfələr beynəlxalq miqyasda yüksək qiymətləndirilir və bu, hər birimizi qürurlandırır.

Cənab İlham Əliyev ən mötəbər beynəlxalq tribunalardan Azərbaycanın haqq-ədalət səsini ucaltmaqla, xalqının fikir və istəklərini bəyan etməklə, reallıqları, problemləri, özünün sülh, demokratiya, azadlıq amallarını bəyan etməklə, bəşəriyyətin xoşbəxt gələcəyi, insanların firavanlığı üçün düşünən uzaqgörən, qətiyyətli, prinsipial, xalqının milli maraqlarını daim üstün tutan bir Prezident olduğunu sübut edib.

Uzun illər Ermənistanın işğalı altında olan, talanan, viran edilən şəhər və kəndlərimizin, torpaqlarımızın əsarətdən qurtarılması, 44 günlük müharibə və 23 saatlıq antiterror tədbirləri nəticəsində düşmən ordusunun darmadağın edilməsi və erməni faşistlərinin ayaqlarının Qarabağdan kəsilməsi Ali Baş Komandan İlham Əliyevin ölkəyə rəhbərlik dövrünün heç vaxt unudulmayacaq, daim xatırlanacaq qızıl səhifəsidir. Tək bir ölkəyə - Ermənistana qarşı yox, təcavüzkar ölkənin çoxsaylı havadarlarına, qətiyyətsiz və ikiüzlü beynəlxalq təşkilatlara, məkrli rəhbərlərə, rüşvətxor siyasətçilərə qarşı aparılan mübarizəni İlham Əliyev qələbə ilə başa çatdırdı. Ordusunun, xalqının əzmkarlığını, qəhrəmanlığını dünyaya göstərdi və sübut etdi ki, haqq-ədalət qalibdir, Azərbaycan düşmənindən qisas almağı, torpaqlarını xilas etməyi bacarır. Azərbaycan bu müharibədə həm də bəşəri amallarını ortaya qoydu. Ermənistanı sülhə, danışıqlara, qan tökülməməsinə dəvət etdi, beynəlxalq təşkilatların qətnamələrini, qərarlarını, beynəlxalq hüquq normalarını xatırlatdı.

Prezidentimiz həmişə olduğu kimi, bu gün də sülh yolundadır. Güclü orduya, iqtisadi inkişafa, birliyə, səfərbərliyə malik olmağımıza baxmayaraq, sülh danışıqları, əməkdaşlıq, sağlam qonşuluq münasibətləri önəmli hesab edilir və bu yolda lazımi addımlar atılmaqdadır. Ancaq nədənsə Ermənistan və havadarları bu çağırışlara ciddi əhəmiyyət vermir, təcavüzkar ölkə silahlanmağa, revanş götürməyə cəhdlər göstərir, xarici ölkələrdən silah alır, hərbi təlimlər keçirir, atəşkəsi pozmaqda, təxribatlar törətməkdə davam edir. Belə olan halda Azərbaycan Prezidenti arxayınlaşmağa əsas görmür, ordunu gücləndirməyi, hərbi müdafiə sənayemizi inkişaf etdirməyi, sərhədlərimizi möhkəmləndirməyi, təhlükəsizliyimizi təmin etmək üçün vacib olan tədbirlər görməyi əsas vəzifə kimi qarşıya qoyur.

İkinci Qarabağ müharibəsində məhz Azərbaycan tərəfindən sülh danışıqlarına təşəbbüs göstərilməsi, ancaq bunun cavabsız qalması və Ermənistanın havadarlarının təkidi ilə danışıqlardan yayınması, sülhə gəlməməsi dövlət rəhbərini düşündürsə də, səylərin, ölkəmizə qarşı yönəldilmiş məkrli məqsədlərin əhəmiyyətsiz olduğu bildirilir və tərəflərə qəti cavablar ünvanlanır. Azərbaycan Prezidentinin və xalqının tutduğu yol haqq, ədalət, həqiqət, inkişaf yoludur. Biz gücümüzə arxalanmalı, potensialımıza güvənməli, milli-mənəvi dəyərlərimizi qoruyub yaşatmalı, vətənpərvər vətəndaşlar tərbiyə etməli, insanlığa, bəşəri amallara önəm verməli, qüvvələrimizi bir məqsəd - dövlətimizin və xalqımızın inkişafı, firavanlığı uğrunda birləşdirməli, dost ölkələrlə əməkdaşlığı möhkəmləndirməli, yeni dövrün tələblərinə, reallıqlara uyğunlaşmalı və işləməliyik. Bu yolda ölkə rəhbərinin yolu açıqdır, uğurludur. Son 21 ildə bu yol dövlətimizi inkişaf etdirir, şöhrətləndirir və xoşbəxt gələcəyə aparır. Bu yolun gələcək uğurlarına hər bir Azərbaycan vətəndaşı inanır və qürur duyur.

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***